# Təhsil, özünütəhsil və özünütərbiyə

**Günel Məmmədova**
*ADPU-nun müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** dos. A.Ş. Həşimova,
ped.ü.f.d. M.Ə. Zamanova

**Açar sözlər:** təhsil, özünütəhsil, özünütərbiyə, təlim, dəyər
**Ключевые слова:** учеба, самоучеба, самовоспитание, обучение, ценность
**Key words:** education, self-education, self-upbringing, training, cost

Çin filosofu Konfutsi: "Əgər bir illik planın varsa, taxıl ək. Əgər on illik planın varsa bağ sal. Əgər 100 illik planın varsa insanları öyrət" demişdir.

Beləliklə "Təhsil" anlayışının üç əsas mənası var: təhsil – şəxsiyyətin mülküdür (dəyəridir). Təhsilalma şəxsin öz mülkünü qazanma prosesidir. Təhsil sistemi – bütün vətəndaşlara öz mülklərini qazanmağa kömək etmək üçün mövcud olan sosial institutdur.

Elə adamlar var ki, onların fərdi mədəniyyətini yalnız təhsil təşkil edir. Belələrini gəzən ensiklopediya adlandırırlar. Onlar çox böyük miqdarda mətnləri əzbər bilirlər, ancaq on lar dan heç də baş çıxarmırlar. "Yadımdadır", "söyləyə bilirəm" deməkdir, "bilirəm" isə yalnız söyləmək yox, həm də başa düşmək, anlamaq, hiss etmək deməkdir.

Uşaqlıqda təhsil formalaşan insanın şəxsi maraqlarına uyğun istiqamətlənir ki, bu da öz-özünə baş verir.

İlk yazılı mənbəyə əsasən məktəb Yaxın Şərqdə qədim döv lət olan Şumerdə yaranıb. Birinci dəfə o, məbədin nəzdində meydana gəlib, sonralar dünyəvi təhsil mərkəzinə çevrilib. Təd ris mətnləri kimi əsatirlərdən, epik deyimlərdən, məhəbbət mah nı la rından, yas bayatılarından və i.a. istifadə olunurdu. Mədə niy yətə öyrədilmə əvvəlcə ixtisaslaşdırılmış materiallar əsa sında aparılırdı. Sonradan şumer müəllimləri söz və ifadələrdən xü susi tədris mətnləri tərtib etməyə başladılar ki, bu mətnlərdə söz və ifadələr ümumi mənada birləşirdilər: birində bitkilərin adı, digərlərində canlıların, daş və mineralların, ölkə, şəhər və kənd lərin adı əks olunurdu; cavab və həlli ilə riyazi tapşırıqlar da tərtib olunurdu.

Tədricən bu cür mətnlərin böyük toplusu yarandı, onların arasında tövsiyələr, nəsihətlər, məktəb həyatı haqqında heka yə lər də yer aldı. Burada humanitar və təbiət elmləri üzrə iki əsas proqramdan istifadə olunurdu.

Mədəniyyət mürəkkəbləşdikcə təhsil sistemi onun material larını seçməyə, süzgəcdən keçirməyə başlayır. Orijinal mətn lər məktəb həyatından gedir, onla rın yerini müxtəlif şərhlər, interpretasiyalar tuturlar. Məktəbin təhsil mühiti şəxsiyyət və mədəniyyət arasında özünəməxsus qapı funksiyasını öz üzə rinə götürür.

Beləliklə, hələ qədimdən təhsil sistemi özünü şəxsiyyət və mədəniyyət arasında vasitəçi kimi görür; məktəb, müəllim, dərslik cəmiyyətin mədəniyyətində yaranmış müxtəlif dillərin, formalaşan fərdi mədəniyyətin tərcüməsilə məşğuldurlar. Bu tərcümənin metodoloji əsasları, tərz və keyfiyyəti daim pedaqoqların və geniş ictimaiyyətin müzakirə predmeti olmuş, bu da təəccüblü deyil: mədəniyyətin ifadəsi üçün həyata təzəcə qə dəm qoyan nəsillərin qarşısına o hansı tərzdə çıxacağı son dərəcə vacibdir.

Ənənəvi təhsil sistemi. İndi də dünyadakı adamların çoxunun keçdiyi ənənəvi təhsil sistemi əsrlərlə və minilliklərlə yaranmışdır. Təəccüblü təzad ondadır ki, cəmiyyət həmişə

özü nün təhsil sistemindən narazıdır, həmişə onu tənqid edir, ancaq sonda hər şey olduği kimi qalır. Ənənəvi məktəb doğrudan da həbsxanaya bənzəyir, onunla ki, şagirdlər orada müəllimin nəzarəti altında qalmalıdır və müəllimin funksiyalarından biri də nəzarət etməkdir. Həqiqətən də, belə məktəblərdə tədrisin məqsədi şagirdin xüsusi qabiliyyətlərinin və meyllərinin inkişaf etdi rilməsi yox, onu formalaşmış ümumi normalara alışmaqdır.

İntellektual əməyin vahid kompleksinin çox zəruri həlqələlərindən biri özünütəhsildir. Bu fəaliyyət növü insanın sosial-siyasi və professional ixtisas hazırlığının təkmilləşdirilməsi və biliklərə yiyələnmə vasitəsi kimi cəmiyyət həyatının bütün quruluş və mərhələlərində diqqət mərkəzində olmuş, mütərəqqi görüşlü adamları daim məşğul etmiş və onun faydalılıq ”əmsalına” əsaslanaraq yüksək qiymət vermişlər.

Xalq təfəkkürünün məhsulu olan deyimlərdə, qədim yunan filosoflarının əsərlərində, müqəddəs dini kitabımız ”Qurani-Kərimdə”də, Məhəmməd Peyğəmbərin hədislərində, Şərq mütəffəkkir pedaqoqlarının irsində, maarifçilərin və yeni dövr elm, ədəbiyyat, incəsənət korifeylərinin yaradıcılığında özünütəhsillə bağlı foklor-aforizmlər indi də öz əhəmiyyətini itirməmişdir.

Xalqımızın müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi olan zəngin və dərin mənalı folklor nümunələri elm və təhsil almağın vacibliyi və faydalılığı haqqında çağırışlarla doludur. ”Qələm tutan əl suala açılmaz”, ”Bilməmək eyib deyil, öyrənməmək eyibdir” və s. bu kimi xalqın ibrətamiz məzmunlu, hikmət dolu mücrüsü - atalar sözləri bu dedfiklərimizə sübutdur.

Çin xalqının qədim deyimlərində də özünütəkmilləşdirmə, biliklərə yiyələnmə haqqında maraqlı fikirlər vardır. Təsadüfi deyildir ki, öyrənmək, bilik əldə etmək, ömrü boyu təkmilləşməklə bağlı “Qorxma ki, heç nə bilmirsən, qorx ki, öyrənmirsən” kimi onlarca atalar sözləri bu xalqın təfəkküründən süzülüb.

Antik mədəniyyətin mütəfəkkirləri Sokrat, Diagen, Platon, Aristotel, həmçinin Plutarx, Seneka, Mark Averli və başqaları özünütəhsili və özünütəkmilləşməni insan həyatının mədəni-mənəvi yüksəliş səviyyəsinin başlıca amili kimi qiymətləndirir, özünütəkmilləşmə, öyrənmə ilə “nəfəs alır” və bunu ətrafdakılara da məsləhət görürdülər. Sokratın “ömrüm boyu öyrəndim, axırda bir onu bildim ki, heç nə bilmirəm” məşhur aforizmi indi də insanları kamilləşməyə, yeni bilikər əldə etməyə çağırış limi səslənir.

Bəşəriyyətə möhtəşəm bir din və “Böyük İslam mədəniyyəti” bəxş etmiş Məhəmməd Peyğəmbərin “Elmi beşikdən qəbr evinədək öyrənin”, ”Elm Çində də olsa, onun dalınca gedin”, ”İki şəxs doymaq bilməz: elm təşnəsi, dünya(malı) həsiri” və sairə. bu kimi hədisləri gənc nəsildə elm öyrənməyə həvəs oyatmaq,onlara özünütəhsil bacarıq və vərdişlərinə yiyələnməyin vacibliyiyni dərk etdirmək baxımından çox əhəmiyyətlidir.

Dahi Azərbayacan şairi Nizami Gəncəvinin həyatı və yaradıcılıq fəaliyyəti özünütəkmilləşdirmə, ömrü boyu öyrənmə, öz bilik xəzinəsini daimi yeniləşdirmə, dərinləşdirmə və zənginləşdirmə faktları ilə doludur. Böyük şair yaşa dolduqca özünə qarşı daha tələbkar olmuş, daha böyük şövq və həvəslə çalışmışdır. ”Yeddi gözəl” və “İsgəndərnamə” əsərlərindəki qeydlərindən anlaşılır ki, şair qoca çağlarında da mütaliədən əl çəkməməsi, hər bir əsərini yazmaq istərkən yüzlərlə kitab oxumuş və müxtəlif yazılı mənbələrlə tanış olmuşdur:

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ.
Ərəbcə, dəricə, yeri düşərkən,

Buxari, Təbəri əsərlərindən
Oxudum,oxudum sonra da vardım
Hər gizli xəzinədən bir dürr çıxardım (4, s. 31)

"Əgər insan öz vaxtından səmərəli istifadə etsə, onda öz xöşbəxtliyinin mənbəyini tapacaq" - deyən böyük çex pedaqoqu Y.A.Komenski insanda öz-özü ilə məsləhətləşmək zövqünü tərbiyə etməyin incəsənətini tapmağı və pansofiya ideyasını (məktəbin pansofiyasını) - hərtərəfli elmi müdrikliyi yaratmağı və yaymağı zəruri sayırdı (2, 118).

Azərbaycan maarifçilərinin xalqı özünütəhsil fəaliyyətinə alışdırmaq məqsədilə müxtəlif təsisatlar yaratması - dərnəklər və kitabxanalar təşkil etmək, jurnal və qəzet nəşr etdirmək, xalq arasında savad yayan cəmiyyətlər yaratmaq, şəxsi, axşam və növbəli məktəblər açmaq, ibtidai savad və dilləri müstəqil şəkildə öyrətmək üçün vəsaitlər çap etdirmək kimi təşəbbüsləri də özünütəhsil tariximizin əhəmiyyətli səhifələri kimi qiymətləndirilməlidir.

Özünütəhsil çox mürəkkəb didaktik proses olub, dərin məzmuna, geniş sahələrə, növ və formalara malikdir. Pedaqoji mühit üçün hələ də çox mötəbər mənbə sayılan "Педагогическая энциклопедия" adlı nəşrdə oxuyuruq: "Özünütəhsil - müstəqil işləmək, fəaliyyət göstərmək yolunda əldə edilmiş təhsil kimi təlim-təhsil müəssisələrindən kənar təhsildir".

A.K.Buşlya yazır ki, özünütəhsil təhsilin növü kimi dəyərləndirilsə də, sadə forması deyil, əksinə təhsilin xüsusi formasıdır. Öznünütəhsil müstəqilliklə, müəyyən qanunauyğunluqla bağlıdır və buna görə də pedaqoji təşkili zərurirdir. Bu mənada özünütəhsil özünə məxsus mahiyyətə, mərhələlərinin yaranmasına və keçirilməsinə, təşkil olunma və mənbələrinə malikdir.

P.İ.Pidkasist isə özünütəhsil işini "insanda əsasında zəruri biliklərin formalaşması duran elə bir prosesdir ki, onda biliklərin həcminin böyüməsi, yüksəlişi və inkişafı durur" - deyə səciyyələndirir. Müəllif qeyd edir ki, özünütəhsil məktəbdən başlayır, onun ikl elementləri təlim fəaliyyətində yaranır. Şagirdlərdə elmlərin əsaslarını dərindən öyrənmək həvəsinin oyanması onlarda bilikləri toplamaq ehtiyacı doğurur, daha doğrusu, əqli əməyin təşkili üçün bacarıq və vərdişlərin yaranması onları yeni biliklər əldə etməyə istiqamətləndirir. Daha sonra müəllif yazır ki, bu əlamətləri nəzərə almasaq, biz faktiki olaraq özümüzü özünütəhsil nəzəriyyəsi imkanından məhrum edirik, istər –istəməz özünütəhsili təlim prosesindən ayırırıq.

Pedaqoq və psixoloqların özünütərbiyə haqqında tədqiqatlarında da özünütəhsillə bağlı fikirlər vardır. Bu fikirlərin iki cəhətdən izah etmək mümükündür: əvvəla, özünütəhsil anlayışının (və hər ikisinin) mahiyyəti, yeri və mövqeyi baxımından, A.Y.Aret, A.Q.Kovaleva, A.İ.Koçetov və başqalarının əsərlərində özünütəhsil probleminə ya özünütərbiyənin bir hissəsi kimi, yaxud hər ikisinə birlikdə baxılmışdır.

Özünütərbiyə üzrə ilk tədqiqat əsərlərinin müəllifi kimi İ.P.Pavlov və A.Q.Kovalevanı qeyd etmək olar. Onlar özünütərbiyəyə sosial proses kimi yanaşmış və özünütəhsilə özünütənzimləmənin bir hissəsi kimi baxmışlar.

A.Y.Aret özünütərbiyəni geniş anlamda götürür. O, intellektual özünütərbiyəni özünütəhsil, əmək, əxlaqi, fiziki, estetik, həmçinin xarakter və sərbəstlik tərbiyəsi kimi mənalandırmağa çalışır. Müəllif yazır: "Əgər özünütəhsil anlayışı altında başlıca olaraq müstəqil şəkildə biliklər əldə etmək nəzərdə tutularsa, onda intellektual tərbiyə bütün tamlığı ilə özünütəhsilə az uyğun gəlir. Bu halda intellektual tərbiyə özünütəhsil anlayışından daha geniş anlayışdır. Çünki o, əldə edilmiş biliklərlə yanaşı, intellektual inkişaf keyfiyyətləri və xüsusiyyətlərini özündə əks etdirir" (5, s.157). Buradan göründüyü kimi, özünütəhsilə özünütərbiyənin hissəsi kimi belə bir baxış (özünütəhsilin spesifik mahiyyətə, məqsədə və

vəzifələrə, öz inkişaf prosesinə malik olması və sairəni unutmamaq şərtilə) özünün müsbət cəhətləri ilə seçilir. Lakin bunu onların (özünütərbiyə və özünütəhsilin) əsasında öz təbiətlərindən irəli gələn ümumi əlamətlər kimi qiymətləndirmək lazımdır. Özünütəhsil özünütərbiyədən məzmun, mahiuyyət cəhətdən fərqli anlayış olsa da, özünütəhsil özünütərbiyədən ayrılmazdır. Bu, pedaqogikada tərbiyə prosesinin əsas hissəsi və nəticəsidir, şəxsiyyətin mənəvi aləminin inkişafı prosesi və ümummədəni təkmilləşməsidir.

Özünütəhsil anlayışının əsas əlamətlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

1. Özünütəhsil özünə məxsus mahiyyətə, mərhələlərinə, təşkil olunma və mənbələrinə malik müstəqil, uzun müddətli, müntəzəm və davamlı bir fəaliyyətdir.

2. Özünütəhsil müəyyən pedaqoji təşkili zəruri olan təhsil növü kimi ümumi və ixtisas-sistemli təhsil prosesində formalaşdırılır və sonralar şəxsi təşəbbüskarlı yolu ilə praktikada təkmilləşdirilir, həyata keçirilir.

3. Özünütəhsil üçün səciyyəvi xüsusiyyət insanın daxili stimulları — ehtiyac və tələbatları, meyl və maraqları, könüllü olması, biliyi sərbəst şəkildə əldə etmək səyi ilə bağlıdır. Bu prosesdə məşğələnin metodu,vasitələri, vaxtı insanın özü tərəfindən müəyyənləşdirilir.

4. Özünütəhsil əqli və əxlaqi inkişaf, təhsil və ixtisas səviyyəsinin yüksəldirilməsi, şəxsiyyətin onu əhatə edən aləmlə qarşılıqlı təsirinin yüksəldilməsi, şəxsiyyətin onu əhatə edən aləmlə qarşılıqlı təsirinin genişlənməsi və insanın ictimai fəallığının yüksəlməsi ilə bağlıdır.

5. Özünütəhsil insanı axtarçılığa, təşəbbüskarlığa, inkişafa sövq etdiyinə görə müstəqil təlim işləri, intellektual tərbiyə, özünütərbiyə ilə sıx qarşılıqlı əlaqədə, vəhdətdə formalaşır, müəyyən inkişaf istiqamətinə malik olur. Ona görə də özünütəhsil fəaliyyətinə hazırlıq xüsusi aktullıq kəsb edir.

**Məqalənin aktuallığı.** Hələ qədim dövrlərdən etibarən təhsil sistemi özünü şəxsiyyət və mədəniyyət arasında vasitəçi rolunu oynamışdır. Əgər nəzərə alsaq ki, bu vacib məsələ həmişə olduğu kimi, indi də öz əhəmiyyətini qoruyub saxlamışdır, onda bu sahədə mövcud olan problemlərin öyrənilməsi baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Özünütəhsil sosial-pedaqoji məna və əhəmiyyət daşıyır. O, insanların ümumi, siyasi və ixtisas təliminin və fəaliyyətinin bütün sistemi ilə bağlıdır. İntellektual əməyin vahid kompleksinin çox zəruri həlqələrindən biri kimi müasir elmi-nəzəri tədqiqatların problem mövzuları olmuşdur

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Ağayev Ə.Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı: Elm, 2000.
2. Komenski Y.A. Seçilmiş pedaqoji əsərlər. Bakı,1961.
3. Hacı Sabir.101 hədis. Bakı: Gənclik, 1990.
4. N.Gəncəvi. Yeddi gözəl. Bakı: Yazıçı, 1983.
5. Арет А.Я. Основные положения теории самовоспитания. Фрунзе: Кыргызстан, 1963.


**Г. Мамедова**

## Учеба, самоучеба и самовоспитание

## Резюме

Феноменальная сила учебы активно влияет развитию ко всем сферы общество. Каждый день сегодняшний эпохи мы увидим успехи в области образовании, и это еще раз доказывает его значении.

**G. Mammadova**

## Education, self-education and self-upbringing

## Summary

The phenomenal power of education affects the entire spectrum of society. A period when we entered the third millennium confirms that every new day with its new achievements is surprising and inevitable.

**Redaksiyaya daxil olub:** 21.11.2018